# İqlim dəyişikliyi və insan hüquqları: Azərbaycanın rolu və beynəlxalq perspektivlər

*İqlim dəyişikliyi ətraf mühitlə yanaşı, insanların həyatına da ciddi şəkildə təsir edir. BMT-nin 2030-cu ilə qədər hədəf qoyduğu Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə və insan hüquqlarının qorunması bir-biri ilə sıx əlaqəlidir. İnsan hüquqları qida təhlükəsizliyi, su təchizatı, səhiyyə və yaşayış şəraiti kimi əsas sahələrdə iqlim dəyişikliyinin yaratdığı təsirlərdən ciddi şəkildə pozulur. BMT-nin iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki əsas çərçivə sənədi olan Paris İqlim Sazişi (2015), eyni zamanda, insan hüquqlarının qorunmasını da önə çıxarır.*



**İqlim dəyişikliyinin insan hüquqlarına təsiri**

Azərbaycanda ölkə başçısı tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik İli" elan edilməsi ilə həm daxili, həm də beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizənin əhəmiyyəti vurğulanır. Eyni zamanda, tezliklə ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyə hazırlaşır. Bununla bağlı olan mövzular, iqlim dəyişikliyi və insan hüquqları arasındakı əlaqələri dərindən anlamaq üçün əhəmiyyətli bir fürsət təqdim edir. İqlim dəyişikliyi, qlobal istiləşmə və ekstremal hava hadisələrinin artması bir çox insan hüquqlarının pozulmasına səbəb olur. Bu təsirlər əsasən ən zəif cəmiyyətlərdə daha böyük fəsadlar yaradır. Həmin təsirlərə nəzər salaq:

**Qida və su təhlükəsizliyi.** İqlim dəyişikliyi kənd təsərrüfatına və su resurslarına ciddi təsir göstərir. BMT-nin Qida və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesablamalarına görə, dünya üzrə 2 milyarddan çox insan qida təhlükəsizliyindən əziyyət çəkir. İqlim dəyişikliyi, məhsuldarlığın azalması və su çatışmazlığı bu problemləri daha da dərinləşdirir. 2019-cu ildə BMT-nin iqlim dəyişikliyi üzrə xüsusi məruzəçisi David Boyd iqlim dəyişikliyinin qida təhlükəsizliyinə təsirini vurğulayaraq, bunun ən çox aclıq və çətinliklərdən əziyyət çəkən cəmiyyətlərə təsir etdiyini diqqətə çatdırıb.

**Səhiyyə problemləri.** İqlim dəyişikliyi ilə əlaqədar təbii fəlakətlərin, xüsusən də sel və quraqlığın artma halları insan sağlamığını təhdid edir. Dünya Səhiyyə Təşkilatının hesabatına görə, hər il dünyada iqlim dəyişikliyi ilə əlaqədar 250 mindən çox ölümün baş verdiyi güman olunur. Bu, xüsusən vektorla ötürülən xəstəliklərin, məsələn, malyariya və dangın (qızdırma, virus növlü xəstəlik) yayılmasına şərait yaradır. 2015-ci ildə Yaponiyada rekord yüksək istilik dalğası nəticəsində 1200 nəfər həyatını itirib. Bu da iqlim dəyişikliyinin əhəmiyyətli təsirlərindən biridir.

**İqlim qaçqınları və köçlər.** Təbii fəlakətlər və daşqınların artması insanların öz torpaqlarını tərk etməsinə səbəb olur. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən yayımlanan məlumata görə, 2019-cu ildə 25 milyon insan iqlim dəyişikliyi ilə əlaqədar köç edib. Bu, "iqlim qaçqınları" anlayışını daha geniş şəkildə gündəmə gətirir. Həmçinin Dünya Bankının 2018-ci ildə hazırladığı hesabatda bildirilir ki, 2050-ci ilə qədər 140 milyona qədər insan iqlim dəyişikliyi səbəbindən evlərini tərk edəcək.

**Cəmiyyətlərdə bərabərsizlik və insan hüquqlarının pozulması.** Cəmiyyətlərdə bərabərsizlik və insan hüquqlarının pozulması iqlim dəyişikliyinin təsirləri ilə daha da dərinləşir. Xüsusilə inkişaf etməkdə

olan ölkələrdə iqtisadi və sosial baxımdan həssas qruplar təbii fəlakətlər nəticəsində daha çox zərər görürlər. Məsələn, 2015-ci ildə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin qəbulunda iqlim dəyişikliyinin yoxsulluqla mübarizə və sosial ədalət məsələləri ilə birgə dəyərləndirilməsi əsas prioritetlərdən biri kimi göstərilib. Bu hədəflər arasında yoxsul cəmiyyətlərin iqlim dəyişikliyinə davamlılığını artırmaq üçün tədbirlər görülməsi də mühüm yer tutur. Araşdırmalar göstərir ki, təbii fəlakətlərdən təsirlənən insanlar arasında qadınlar, uşaqlar, etnik azlıqlar və əlilliyi olan şəxslər daha çox risk altındadır və onların yenidən həyatlarını bərpa etmək üçün mütləq əlavə dəstəyə ehtiyacı var.



**Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə rolu**

Azərbaycan iqlim dəyişikliyinin yaratdığı təsirlərlə mübarizəyə ciddi yanaşır. 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmiznin ətraf mühitin qorunması və dayanıqlı inkişaf məqsədinə doğru irəliləməsi ilə bağlı mühüm addımdır. Azərbaycan bu təşəbbüslə ərazisində ekoloji təhsili artırmaq, iqlim dəyişikliyinə qarşı mübarizə metodlarını genişləndirmək və ətraf mühitin qorunmasını təmin etmək məqsədini hədəfləyib. Həmçinin Azərbaycanın COP29-a ev sahibliyi etməsi iqlim dəyişikliyi ilə mübarizəyə dair beynəlxalq səviyyədə vacib qərarların qəbul edilməsinə töhfə verəcək. Bu tədbirdə insan hüquqları və ətraf mühitin qorunması ilə bağlı yeni addımların müzakirə olunması gözlənilir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə həm milli, həm də beynəlxalq səviyyədə bir sıra mühüm addımlar atır. 2030-cu ilə qədər ümumi enerji istehsalının 30 faizinin bərpaolunan mənbələrdən təmin edilməsi hədəflənir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji" zonaları elan edilməsi günəş və külək enerjisi layihələrinin inkişafına yol açıb. Azərbaycanda ilk karbon bazarının yaradılması təşəbbüsü karbon tullantılarının azaldılmasına və şirkətləri daha ekoloji məsuliyyətli fəaliyyətlərə yönəltməyə xidmət edir. Meşə ərazilərinin artırılması ilə Azərbaycanda ekosistemin qorunması və iqlimə təsir edən karbonun udulması məqsədinə nail olmaq üçün ciddi addımlar atılır. "Ağıllı" kəndlər və şəhərlər - "Yaşıl Şuşa, Yaşıl Dünya" təşəbbüsü çərçivəsində Qarabağda dayanıqlı kənd təsərrüfatı və ekoloji təmiz infrastruktur inkişaf etdirilir. "Ağıllı" kənd və şəhər layihələri resurslardan səmərəli istifadəyə və ətraf mühitin qorunmasına yönəlib. COP29 hazırlıqları - Azərbaycanın COP29-a ev sahibliyi etməsi beynəlxalq əməkdaşlıq çərçivəsində iqlim dəyişikliklərinə dair yeni həll yollarının və müvafiq öhdəliklərin qəbul olunmasına dəstək verəcək. Bu tədbir çərçivəsində Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə lider mövqeyini gücləndirməyi planlaşdırır. Görülən tədbirlər Azərbaycanın ekoloji təhlükəsizliyini və davamlı inkişafını təmin etməyə yönəlib, ölkəni beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə nümunəvi bir tərəfdaşa çevirib.




**İqlim dəyişikliyinə qarşı beynəlxalq təşəbbüslər və insan hüquqları**

Beynəlxalq hüquq iqlim dəyişikliyinə qarşı mübarizədə insan hüquqlarını qorumaq üçün müxtəlif sənədlər hazırlayıb. BMT-nin Paris İqlim Sazişi (2015), qlobal istiləşməni 1.5°C ilə məhdudlaşdırmağı və iqlim dəyişikliyinin təsirlərini ən çox hiss edən cəmiyyətlərə maliyyə və texnoloji dəstək verməyi nəzərdə tutur. BMT-nin İnsan Hüquqları Şurası 2008-ci ildə qəbul etdiyi qərarda iqlim dəyişikliyinin insan hüquqları ilə əlaqəli olduğunu və bunun müzakirə edilməli olduğunu vurğulayıb.

Azərbaycan qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizə və insan hüquqlarının qorunması sahəsində mühüm addımlar atır. Yerli səviyyədə iqlim dəyişikliyinə qarşı adaptasiya strategiyalarının inkişafı, ətraf mühitin qorunmasına yönəlmiş qanunların möhkəmləndirilməsi və sosial ədalətin təmin edilməsi önəmlidir. Azərbaycan qlobal səviyyədə iqlim siyasətini dəstəkləyərək beynəlxalq əməkdaşlığa daha çox töhfə verir. Bu, həm ətraf mühitin, həm də insanların hüquqlarının qorunmasını təmin edir. İqlim dəyişikliyi və insan hüquqları arasında mövcud olan qarşılıqlı əlaqə qlobal və yerli səviyyədə ciddi tədbirlər tələb edir. Azərbaycanın COP29-a ev sahibliyi etməsi bu sahədə atılacaq addımların artmasına və beynəlxalq əməkdaşlığın güclənməsinə imkan yaradır. İnsan hüquqlarının qorunması və iqlim dəyişikliyi ilə mübarizənin bir arada davam etdirilməsi, dayanıqlı inkişaf və sosial ədalət üçün vacibdir. Bu məqsədlə Azərbaycanın və dünya ölkələrinin gələcəkdə daha sıx əməkdaşlıq etməsi həm ətraf mühitin, həm də insanların hüquqlarının qorunmasına töhfə verəcək.

***Yazı Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsman) 10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirdiyi "İqlim dəyişikliyi və insan hüquqları" mövzusundakı müsabiqəyə təqdim olunur.***

**Təhminə Verdiyeva**

**AZƏRTAC**
**2024, 7 noyabr**